Səlvi
Rəhimqızı

# Yarımçıq qalan ömürdən xatirələr



*Səlvi Rəhimqızı*

# YARIMÇIQ QALAN ÖMÜRDƏN XATİRƏLƏR

Bakı – 2018

Səlvi Rəhim qızı Miskərli (Həsənova)
YARIMÇIQ QALAN ÖMÜRDƏN XATİRƏLƏR
– Bakı: Mütərcim, 2018. – 60 səh.

R $\frac{4702060000}{026}$ 299-18

© S.R. Miskərli (Həsənova), 2018

*Aramızdan vaxtsız getmiş əziz qardaşım*
*Mehdinin əziz xatirəsinə həsr edirəm*

## ÖN SÖZ

Əziz oxucular!

Bu kitabı yazmaqda qardaşım Həbib Həsənovun yarımçıq qalmış şəcərəsini tamamlamaq və həyatdan vaxtsız köçən alim-yazıçı, X.Abovyan adına İrəvan Dövlət İnstitunun dosenti Mehdi Həsənovun ömrünün yarımçıq qalması səbəblərini sizə çatdırmaq və onunla əlaqədar kövrək xatirələrimi əbədiləşdirməkdir.

Hörmətli Mehdi sevərlər, böyük ədiblərin yazdıqları qarşısında mənim bir-iki acı xatirələrim heç nədir. Böyük şairimiz Hüseyn Arifin “Görüşdüm amma, necə”, görkəmli dramaturq – publisist Hidayət Orucovun “Burdan min atlı keçdi” kitablarında Mehdi haqqında yazdıqları məqalə və şeirləri göz yaşı ilə oxuyuram. Bunlardan başqa böyük qardaşım Həbib Həsənov “Silinməz adlar, sağalmaz yaralar”, Əli Vəkil “İki günəş” , Zirəddin Məhərrəmov “Unudulmaz sazlı-sözlü yurdumuz” adlı kitablarını Mehdinin əziz xatirəsinə həsr ediblər.

Mehdini xatırlayanların hamısına təşəkkür edirəm. 47 ildir Mehdini axtarıram- həyatda, radio dalğalarında, qəzet və jurnal səhifələrində. Mehdi haqqında nə qədər yazılsa da, deyilsə də mənim üçün azdır.

## Nəcib insan, unudulmaz yoldaş...

Az oldu ömür payı Mehdinin. Həyat kitabçasının 36-cı səhifəsi yarımçıq qaldı. Yarımçıq qaldı qələm yoldaşımızın, alim – müəllim dostumuzun özü də, tələbəyə – oxucuya deyiləsi sinə dolusu sözü də. Yarımçıq qalan məqalələrimi, hekayələrimi, dost yoldaşa həyanlıq səyimi deyəsən, keçdiyim qısa həyat yolumu söyləyəsən. X.Abovyan adına İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin tələbələri cəmi üç ildə ürəkdən bağlanmışdılar Mehdi müəllimə. Ermənistanın azərbaycanlı oxucuları məhəbbətlə dinləyirdilər onun ilk mətbu səsini – "Dağlar qoynunda"sını. Üç həftə əvvəl "Hayastan" nəşriyyatına təqdim etdiyi kitabını isə müəllif görə bilmədi. Bu il oxucu bir daha duyacaq onun yarımçıq qalmış nəfəsini. Alim, zəkalı, şair qəlbli əziz Mehdi, sənin xatirən qəlbimizdə əbədi yaşayacaqdır.

***Yoldaşlarından bir qrup***





*Mehdi Rəhim oğlu Həsənov*
*(1935-1971)*

Həsənov Mehdi Rəhim oğlu nasir, publisist, Yazıçılar birliyinin üzvü, 1969-cü ildə filologiya elmlər namizədi .

1935-ci ildə, oktyabr ayının 23-də Nor-Bayazet rayonunun Ağzıbir kəndində anadan omuşdur. Qonşu Hacı Muxan kəndində 1953-ci ildə orta məktəbi bitirmişdir. İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsinin Dil–Ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə Razdan və Axtala rayonlarında müəllim kimi başlamışdır.

1955-1957–ci illərdə Razdan Rayon Komsomol Komitəsində işlədiyi dövrdə Qazaxıstana, xam torpaqlarda işləməyə göndərilən komsomol əmək dəstəsinə başçılıq etmişdir.

1957-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olmuşdur.

1964-1969-cü illərdə "Müasir Azərbaycan dilində xitab" mövzusunda dissertasiya müdafiə etmişdir.

İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycanlı şöbəsinin dil-ədəbiyyat fakültəsində baş müəllim, sonra dossent olmuşdur.

1969-cu ildən bədii yaradıcılığa başlamışdır. İlk qələm təcrübəsi 1959-cu ildə "Sovet Ermənistan"ı qəzetində çıxmışdır.

"Aldanmış gözlər" , "Müjdə", "Vüsal" və "Qisas" hekayələri 1962-1967-ci illərdə "Ədəbi Ermənistan" məcmuəsində dərc olunmuşdur. Bundan sonra dövrü mətbuatda elmi məqalələr, oçerk və hekayələrlə vaxtaşırı çıxış etmişdi. Onun "Dağlar qoynunda" 1964, "Maral əfsanəsi" 1971-ci ildə nəşr edilmişdir. "Hekayələr toplusu" isə İrəvanda kütləvi tirajla nəşr olunmuşdur.

1971-ci il fevralın 5-də İrəvan xəstəxanasında müəmmalı cərrahiyyə əməliyyatı nəticəsində vaxtsız vəfat etmişdir. Ağstafa rayonunda dəfn olunmuşdur.

Anam yanına gedən zaman Mehdi ağır vəziyyətdə idi. Anam deyirdi ki, əlini atıb, sinəmdən yapışdı və yalnız bu sözləri deyə bildi:

– Ay ana məni doğram-doğram doğradılar. İndiyə kimi haradaydın?

Mehdinin ağır vəziyyətini anama deməmişdilər.

Son nəfəsində ...

– Ay ana Səlvini gətir, Səlvini gətir...

Mən isə son nəfəsinə çata bilmədim. Bu mənim üçün ömür boyu böyük bir dərd oldu..!



## MEHDİ RƏHİM oğlu HƏSƏNOV

Həyat cığırına aram ləpəli, yorğun dalğalı Göyçə gölü sahilinin Ağzıbir kəndində qədəm qoydu. Orta məktəb, X. Abovyan adına pedaqoji institutu, Bakı aspirantura illərindən sonra, müvəffəqiyyətlə dissertasiya müdafiə etdi. Filologiya elmlər namizədi alimlik dərəcəsi aldı. İrəvana qayıtdı, bitirdiyi ali məktəbdə dərs deməyə başladı. Qısa, çox qısa həyat yolu, məndəricəsi geniş, mənası zəngin bir ömür... Bünövrəsi lirizm, tağları dramatizm, tacı faciəli ömür. Bədii yaradıcılıq səpgisi də həyat yolunun təranəsi oldu. Ədəbiyyat zəmisinə ülvi hisslər, vüsal həsrəti, sevinc eşqi ilə, duru baxışlarla qədəm qoydu. Ananı sevindirmək, qardaş-bacını vüsala yetirmək eşqi, mülayim yumora, satirik təvəkkürə, gərgin dramatizmə güclü meyl, yaradıcılığının səciyyəsi oldu.

"Ananın sevinci" hekayəsi 1959-cu ildə "Sovet Ermənistanı" qəzetində dərc olundu. "Ədəbi Ermənistan" məcmuəsinin 3, 5, 6-cı nömrələrində hekayələri, 2-ci və 4-cü nömrələrində erməni ədiblərinin yaradıcılığından tərcümələri verildi. "Dağlar qoynunda" adlı ilk hekayələr kitabçası İrəvanda 1964-cü ildə çapdan çıxdı. "Maral əfsanəsi" onun dəhnəsi gur, axarı duru, bədii yaradıcılığında başlanğıc olan ikinci irmak, öz əli ilə nəşriyyata təqdim etdiyi son kitabçasıdır... Başladığı səhifə də, vüsal eşqi də, ömrünün özü də, oxucuya deyiləsi sözü də yarımçıq qaldı.

Hörmətli oxucu gəl, "Maral əfsanəsi"nin səhifələrini vərəqləyək, Mehdi yaradıcılığının nəfəsini, Mehdi qəlbinin səsini, Mehdi könlünün sözünü ehtiramla dinləyək.

## Mehdi Həsənov
## Maral əfsanəsi




Kərim əmi ovçuluğu çox sevsə də ürəyi yumşaq adam idi. Öz dediyinə görə ömründə ceyrana-cüyürə güllə atmamışdı. Hətta, yeri düşəndə deyərdi: -Ceyransız, cüyürsüz meşə, çöl susuz səhra kimi bir şeydi. Təbiətdən zövq almaq istəyirsənsə, onun yaratdığı çöllər gözəlinə qıyma. Payızın əvvəli idi. Kərim əmi ilə ova çıxmışdıq. Nədənsə ovumuz çox uğursuz keçdi. Cəmi ikicə qırqovul ovladıq. Bizə rast gələn bir cüt marala isə yalnız tamaşa etməklə kifayətləndik. Evə qayıdarkən yolumuzu "Maral bulağı" dan saldıq. Bir az sərin su içib dincəldik. Bulaq mənzərəli yerdə idi. Hər tərəf göz işlədikcə uzanan meşəlik, ortada isə kiçik bir tala... Taladakı, yastı təpənin üstündə bitən qocaman çinar maralın buynuzlarını, yanlarından qaynayan bir cüt bulaq onun gözlərini, təpənin özü isə maralın başını xatırladırdı. Bulaqdan axan su bir az aşağıda batıb yox olur, sonra isə birləşərək mal dili kimi meşənin içi ilə uzanırdı. Mənim bu mənzərəyə aludə olduğumu görən Kərim əmi:

– Oğlum, nə çox baxırsan ? -deyə sual etdi

– Heç, Kərim əmi, – dedim. Doğrudan da bulağa düz ad veriblər. Görün, necə də adına oxşayır.

– Elədir oğlum, elədir, – deyə o, sözə başladı. Xalqın qoyduğu hər bir ad müəyyən hadisə, rəvayətlə bağlıdır. Bu bulaq haqqında babalarımızdan yadigar belə bir rəvayət vardır:

– Bir zaman bizim bu meşələr marallar, ceyranlar ovlağı imiş. Uzaq-uzaq ellərdən də bura ova gələrmişlər. Yadellilər zərif məxluqu rəhimsizcəsinə qırıb tökər, bundan həzz alarlarmış. Hansı ölkədənsə bura mahir bir ovçu gəlir, o, gündə neçə günahsız qana baris olur. İsti günlərdən biri idi. O, çoxdan bəri axtardığı bir ana maralın izinə düşür. Deyilənə görə bu meşədə elə gözəl heyvan yox imiş. Ovçu onu bulağa su içməyə enəndə nişan alıb vurur. Köksündən yaralanmış maral çırpına-çırpına həsrətlə gah suya, gah da meşəyə doğru baxır. Ovun başını kəsmək istəyən ovçu onun gözlərindən axan yaşı görüb sarsılır. O, maralın baxdığı səmtə çevrildikdə qanına bulanmış, anasına doğru boylanan bir cüt bala görür. Özünə lənət oxuyur. Öz çirkin əməlindən peşman olub, bir daha ovçuluq etməyəcəyinə and içir. Maralı həmin yerdə basdırır. Üstünə də nişanə üçün bir ağac sancır. Səhərə yaxın kəndin əhalisi bulağın başında bitmiş qollu-budaqlı çınarı görüb heyran qalır. Hamı bu möcüzənin tamaşasına çıxır. Baxırlar ki, köhnə bulaq quruyub. Ondan azacıq aralı kiçik təpəcəyin yanında isə bir cüt bulaq əmələ gəlib. Ucalan çinar da hər iki bulağın ortasında bitib. Ovçu hadisəni açıb söyləyir. Hərə bunu bir cürə yozur. Bəzisi onun maral donuna girmiş "mələk" olduğunu, bulaqların da onun göz yaşından əmələ gəldiyini deyir. Bundan sonra mələyin canına qəsd etdiyinə görə ovçunun bağrı yarılır. Elə o vaxtdan da bulaq "Maral bulağı" adlanır.

Kərim əmi söhbətini qurtarıb ayağa qalxdı.

Mən hadisənin nə qədər düzgün olduğunu deyə bilmərəm. Amma onu deyim ki, indi də hər günorta "Maral bulağına" bir cüt maral enib su içir. Heç kəs də onların xətrinə dəymir. Dəyə də bilməz. Axı onlar babalarımızdan bizə qalmış yadigardır.

## Hüseyn Hüseynzadə (Arif)
## Görüşdüm, ancaq necə

İrəvana dostlarımla görüşməyə getmişdim. Bu ara kim isə sol qoluma ehmalca yapışdı.

– Hüseyn müəllim, bizim tərəflərə xoş gəlibsiniz, – deyə mənə yaxınlaşan gəncin qara qaynar gözləri, xoş təbəssümü qəlbimdə yeni bir sevinc hissi oyatdı. O, mənim nə soruşacağımı qabaqcadan başa düşmüş kimi: – Əlbəttə siz məni yaxşı tanıya bilməzsiniz. Ancaq mən sizi yaxşı tanıyıram. Şeirlərinizdən nə qədər istsəsəniz əzbər deyərəm... İrəvanın yaxşı vaxtıdı, istərdim ki, bir mənə də qonaq olasınız.

Mən İrəvanda Yazıçılar ittifaqının qabaqcadan tərtib etdiyi planla hərəkət edəcəyimi bildirərək üzr istədim. Bir-birimizdən ayrılmaq istəməsək də ayrılmalı olduq.

– Sağ olun Mehdi, görüşərik.

– Sağ olun Hüseyn müəllim, mütləq görüşərik.

***

Ağstafadakı evimiz geniş şosse yolunun qırağında yerləşir. Anamın yanına getmişdim. Buradakı evlərin çoxu təzə tikildiyindən, qonşular da təzədilər. Hələ aralarında lazımi yaxınlıq, get-gəl azdır. Bağçada gəzərkən çəpərin o tərəfindən qadın hönkürtüsü eşitdim. Soruşdum:

– Bu nə hönkürtüdür?

Anam dedi:

– Bu yaxınlarda qonşumuzun qardaşı vəfat edib. Əsilləri İrəvan tərəfdəndir. Deyirlər ölən yazıçıymış, səni də tanıyırmış.

Bu vaxta qədər qapılarını açmadığım qonşunun qapısını açmalı oldum. Gözə, qulağa necə inanasan? Bir neçə vaxt bundan əvvəl İrəvanda sapsağlam qoyub gəldiyim gənc qələm dostum artıq yox idi...



Araya sükut çökdü. Adamlar lal–dinməz mənə baxdılar, mən də onlara. Qardaşının ölümündən o qədər keçməmiş saçlarına dən düşən Səlvi sükutu pozaraq əlindəki kitabı mənə göstərdi:

– Hüseyn müəllim bu "Maral əfsanəsi" kitabı Mehdinin ölümündən 10-15 gün sonra çapdan çıxıb, satışa buraxılmışdır. Öz əlləri ilə nəşriyyata təhvil verdi, amma...

Yadıma nə düşdü?..

– Sağ olun Mehdi, görüşərik!.

– Sağ olun Hüseyn müəllim, mütləq görüşərik!

Görüşdük amma necə?...

"Maral əfsanəsi" ilə ...

"Maral əfsanəsi" kitabı Mehdi Həsənovun İrəvanda "Hayastan" Dövlət Nəşriyyatı tərəfindən buraxılan ikinci kitabıdır. Həmin gecə bu kitabı acgözlüklə oxuyub başa vurdum. Biz kiçik kitabçada iki böyük hiss birləşir. Sevgi və nifrət. Mehdinin sevdiyi kimlərdir, nələrdir? Doğma yurd, onun qəhrəman keçmişi, zəngin, rəngarəng təbiəti, dağları, daşları, dənizləri, gölləri, çayları, meşələri, maralları, ceyranları, cüyürləri. Daha çox müasir dünyamızın yeni keyfiyyətli, yeni təbiətli, zəhmətkeş adamları, nifrət etdiyi tüfeylilər, özgələrin hesabına ciblərini dolduran, mənsəb və şöhrət düşkünləri, əliəyrilər, xəbislər, ara vuranlar və cəmiyyətimizə yabancı şəxslər. Özünün ibrətamiz rəvayətləri, nağılları, əfsanə və hekayələri ilə çoxlarını düşündürüb və vəcdə gətirən Kərim əminin şəxsində müəllif dünyagörmüş, ağıllı, xeyirxah babalarımızın obrazını yaratmağa çalışmışdır. Təsvir təbii və inandırıcı, dil yığcam, axıcı və obrazlıdır. Hiss olunur ki, Mehdi həyatla, insanlarla yaxından qaynayıb-qarışmış, canlı, duzlu danışıq dilindən, folklordan çox şey öyrənmişdir. Qəzetimizin bu nömrəsində oxucularımıza təqdim etdiyimiz "Maral əfsanəsi" tarixi bir rəvayətlə bağlı olsa da, öz mövzusu etibarı ilə tamamilə müasir və aktualdır. Təbiəti, təbii sərvətləri, nemətləri qoruyub yaşatmaq lazımdır. Mən "Maral əfsanəsini" oxuyanda istər-istəməz Aşıq Kərimin:

*Ovçu olan ova tüfəng atmasın,*
*Qəssab olan maral əti satmasın*

misralarını xatırladım.

Azərbaycan aşıq, şair və yazıçılarında təbiətin, gözəlliyin qorunub mühafizə edilməsi ideyası, məqsədi gözəl bir ənənə kimi davam etdirilməkdədir. Kitabda kı "Sədr arvadının hökmü" "Ərizə yaz, baxarıq" kimi satirik planda yazılmış hekayələrdə müəllifin eybəcərliyə, xüdpəsəndliyə, keçmişin mundar qalıqlarına qarşı barışmaz mövqe tutduğunu hiss edirik.

Mehdi tez getdi.

Məhəbbət də, nifrət də yarıda qaldı. Bununla belə az ömürdə az iş görmədi. Oxudu, müəllimlik etdi. Aspiranturanı bitirdi. Filoloji elmlər namizədi alimlik dərəcəsi aldı. 2 kitab çap etdirdi. Evləndi. 2 uşaq atası oldu.

Köçdü.

Gözəl, nəcib bir insan kimi onu tanıyanların qəlbində silinməz xatirəyə çevrildi:

*Bu həsrət yükünü son*
*mənzilədək,*
*Dostların könlündə*
*daşıyacaqdır.*
*Ölüm qızışmasın,*
*qeyzə gələrək,*
*Yaradan yaşayıb,*
*yaşayacaqdır.*



## Mehdi haqqında qısa xatirələrim

Mehdi ilə mən ən kiçik yaşlarımızdan bir-birimizə çox bağlanmışdıq. Mən evin son beşiyi idim. Mehdi məni uşaq kimi əzizlərdi. Evimizdə Həbibin kitabxanası var idi. Mehdi daimi o kitabları oxuyurdu. O, kitab götürəndə mənim də balaca bir kitab xoşuma gəldi. Latın əlifbası ilə yazılmışdı. Mehdidən xahiş etdim ki, axı mən də oxumaq istəyirəm. Mənə hərfləri öyrət. Bir neçə sətirdə mənə hərfləri göstərdi. Mən hərflərə baxıb, o kitabı oxudum. Hələ məktəbə getmirdim.



Kəndimiz bir tərəfdən Göyçə gölü, digər tərəfdən isə dağlarla əhatə olunmuşdu. Qışda güclü qar yağırdı. Mart ayında qarın altından danaqıran gülü çıxırdı. Ağ balaca güllər idi. Sonra novruz gülü və bənövşə çıxırdı. Mehdi güllər çıxan kimi çölə gedir, o güllərdən dəstə bağlayıb, mənə gətirərdi. Dəstəni isə ağacı yarıb, gülləri bir-birinin əks istiqamətinə qoyaraq bağlayardı.

Mən Mehdiyə çox bağlanmışdım. Hamıya olan məhəbbətimi Mehdi, mən sənə verdim, sən də məni gözü yaşlı qoydun. Artıq böyümüşdüm. Ailə qurub, Piriküşküldə yaşayırdım. Həyat yoldaşım hərbiçi idi. Həmin ili qış çox sərt keçirdi (fevral ayı 1962 ci il) .Güclü qar yağmışdı. Mehdi həmin ərəfədə Bakıya, mənim yanıma gəlirmiş, Dilicanda yollar bağlanıb, Mehdi beş gün o soyuqda Dilicanda qaldıqdan sonra nəhayət bizə gəlib çatdı.

Dedim:

– Ay Mehdi bu soyuqda niyə gəldin?

Dedi:

– Axı sənsiz dura bilmirəm.

– Ay Mehdi bəs mən necə durum sənsiz?.40 günə saçlarım bir topa qabaq hissədən ağardı.

Hüseyn Arif 1972-ci il 08 yanvar."Azərbaycan Gəncləri" qəzetində "Görüşdüm, amma necə" məqaləsində yazmışdı. Qardaşının ölümündən o qədər keçməmiş Səlvinin saçlarına dən düşdü. O saçlar Mehdidən mənə yadigardır.

*Mehdi səndən mənə üzücü dərd,*
*Bitib tükənməyən bir dərya qəm qaldı.*
*Qurumayan, sızıb gilə-gilə gələn göz yaşlarım,*
*Bir də vaxtsız qabarıb, codlaşan ağ saçlarım qaldı.*

***

*Sənin ayrılığına dözməyib,*
*Vaxtsız ağaran saçlarıma,*
*Hörmət edirəm.*
*Dözən ürəyimə isə NİFRƏT edirəm.*

*Səlvi.1971- ci il*

Mən cavan vaxtı tünd rəngləri çox sevərdim. Mehdinin vəfatından sonra illərcə qara geyindim. Ona görə indi mən qara rəngə nifrət edirəm. Qaradan başqa bütün rənglərə həsəd aparıram. Əziz gəlinlərimiz, qızlarımız, nəvə-nəticələrim, xahiş edirəm qaradan uzaq durun. Təbiət necə gözəl rənglər yaradıb. Torpaqdan çıxan o gözəl gül-çiçəklərin rənginə baxın. Heç qara gül görmüsünüzmü?! Bir lalənin bağrı qaradır. Onun da indiyə qədər heç sirrini bilən olmayıb. Mehdi vəfat edəndən sonra mən nə danışdığımı bilirdim, nə də hərəkətimi. Bir gün ağlayaraq dedim:

Kaş anam ölərdi.

Həbib dedi:

– Səlvi, niyə elə deyirsən? Sənin Mehdidən başqa beş qardaşın var. Anan isə təkdir. Baxmayaraq Həbib gecə-gündüz Mehdi



deyib ağlayırdı. Bu bizim ailə üçün böyük bir fəlakət oldu. Qonşumuz səhərə qədər bizə gəlib, Həbibin yanında oturaraq onu sakitləşdirirdi... Anam rəhmətə gedəndən sonra mən o acını da hiss etdim, onda anladım ki, ananın yeri də tam başqadır...

*Həyatda heç kəs, sevməsin qaranı,*
*Dərdi yoxdursa geyməsin qara,*
*Qırmızı don aldılar,*
*Dedim kaş olaydı qara.*

***

*Ağ ayaqqabı aldılar,*
*Dedim olaydı bantı qara.*
*İndi mən sənə nifrət edirəm ey qara!*
*Həyatda heç kəs vaxtsız geyməsin qara!*

*Səlvi 1971-ci il .*

Mehdinin ilk qız övladı dünyaya gələndə anam dedi :

– Mehdi qızının adını Tərlan qoy, bəlkə öldüm-elədim, ana deyə çağırarsan. (Tərlan anamın adı idi). Mehdi nə ana deyə çağıra bildi, nə də bala... Erməni təcavüzkarlarının xain əməllərinin qurbanı oldu. Tərlan təzə doğulmuşdu. Mehdi oğlumun əlimdən tutub, Tərlanı qucağına aldı və dedi:

– Gedək nişanlınla şəklinizi çəkdirim.

Dedim:

– Ay Mehdi, sən alim adam, biz hərbiçi ailəsi. Sən bizə qız verərsənmi?

Kədərli- kədərli üzümə baxıb dedi:

– Hələ Səlvinin danışığına bax.





*Nizami, Tərlan* *Tərlan*



*Mehdinin qızı İntizar*



## Mehdi Həsənov – yaxın dostum

Filologiya elmləri namizədi idi. Doktorluq dissertasiyası üzərində işləyirdi. İrəvan Dövlət Pedaqoji İnstitutunun dosenti olub, bu instituta yeni ab-hava gətirmişdi.

Dilçi alim, dossent, görkəmli pedaqoq Lətif Hüseynzadə Bakıya köçəndən sonra Pedaqoji İnstitutun Azərbaycan sektorunda dilçiliyin yüksək səviyyədə tədrisi sahəsində problemlər meydana çıxmışdı. Məhz bu vaxt Mehdi Azərbaycan Dövlət Universitetinin əyani aspiranturasını bitirib, İrəvana qayıtdı və Pedaqoji İnstitutda işləməyə başladı. Görkəmli dilçi alim Muxtar Hüseynzadənin rəhbərliyi ilə dissertasiyasını yazıb qurtarıb, iş müdafiə üçün növbəyə qoyulmuşdu. Bir müddət keçdikdən sonra müdafiə elədi... Onu demək istəyirəm ki, Mehdi yüksək təhsil görmüşdü. Azərbaycanın o dövrdəki görkəmli dilçiləri ilə ünsiyyətdə olmuşdu. Ona görə də belə savadlı gəncin İrəvana qayıtması, pedaqoji İnstitutun Azərbaycan bölməsində müəllim işləməsi yalnız bu bölmənin tədris həyatını deyil, ümumiyyətlə, İrəvanın Azərbaycan ziyalı mühitini zənginləşdirirdi.

Nasir idi, hekayə və povestlər kitablarının müəllifi idi.

Teatr tamaşası izləməyi sevərdi, bəzən eyni tamaşaya üç-dörd dəfə baxardı.

Dərin savadı, yüksək mədəniyyəti, səmimiyyəti ilə həmyaşıdlarından seçilərdi. Erməni dilini yaxşı bildiyi üçün bədii tərcümə ilə də məşğul olurdu. Primeriyalara bütün tələbələri ilə gələrdi, təxminən yüz nəfərlə. Primeriyalar qış, yay tətillərinə düşəndə bütün qohum-qonşusunu başına yığıb, tamaşaya baxardı.

Soruşardım: "Kapitanın kefi necədir?" (Futbollara bir yerdə gedərdik.)

Deyərdi: "Bu axşam meydan sənin aktyorlarınındır".

Mehdinin müxtəlif vaxtlarda dediklərindən:

"......İrəvanda qəzetimiz də var, institut da. Şöbəmiz , texnikumumuz, orta məktəbimiz də.... Amma əsl sənət ocağımız teatrımızdır. Peşəkar teatr varsa, deməli xalq öz yurdunda düşünür, axtarır, bir sözlə , öz yurdunda yaşayır və sabahla nəfəs alır".

"...Bu teatr bir gün Bakıya qastrola gedəcək və....hamını heyrətləndirəcək".

"....Əsl tamaşaçı da tamaşanın iştirakçısıdır".

"....Deyirlər, filan əsərin vaxtı keçib.Bəs niyə dörd yüz ildir Şekspiri vərəqləməkdən yorulmuruq?"

"....Yazıçının teatrda ən böyük vəzifəsi ədəbi hissə müdiri olub həmişə. İlk dəfədir ki, şair direktor stolunda oturub...."

Kor bağırsağını kəsdirmək üçün xəstəxanaya gedəcəkdi.

– Deyirlər, kor bağırsaq insan orqanizmində artıq şeydir, -dedim.

– Ümumiyyətlə, insanın nədən başı çıxmırsa, artıqdır, -həmişəki yumoru ilə cavab verdi.

Xəstəxanaya çatan kimi zəng çalmışdı:

– Gəlib eləmə ha, hələ kef çəkirəm burda, analizlərə başım qarışıb...

Ertəsi günü kor bağırsağını kəsdilər. Əvvəllər hər şey öz qaydasında gedirdi, sonra isə vəziyyəti birdən birə dəyişdi, təkrar cərrahiyyə əməliyyatı keçirməli oldu ....

Üç gün üç gecə xəstəxana dəhlizlərində qaldıq. Şəhərin ən yaxşı cərrahları neçə dəfə konsilium elədilər. Moskvadan mütəxəssis dəvət olundu və.... köməyə çata bilmədi.

Böyük qardaşı Həbib Həsənov bircə həftədə qocaldı. Qardaşı İsmayıl yüz ilin qocasına oxşadı. Bu ağır itkiyə şer də yazdım, yenə ürəyim boşalmadı:

*Həkim, mənim sənə çox hörmətim var,*
*Həkim, mənim sənə məhəbbətim var,*
*Bir ürək kəsəndə, böyrək yaranda,*
*Mədə "doğrayanda", ürək yaranda,*
*Bir insan ömrünün qürub yaşında-*



*Səninlə ölümün şir savaşında*
*Deyirəm, bir həyat qayıdır geri,*
*Bir ömür kainat qayıdır geri!..*
*Savaşla, bıçaqla aram yoxsa da,*
*Alqış bıçağının dəyanətinə,*
*Bıçağın təzadlı məhəbbətinə!*

*Ağlımız ulduza, günəşə yetib....*
*Xərçəng sağaltmağa can atırsan sən.*
*Beyin dəyişdirilib, ürək köçürüb,*
*İdeal möcüzə yaradırsan sən.*
*Bəs niyə o axşam qəlbin ağladı?!*
*Bir ağbirçək ana saçını yoldu.*
*Bir gəlin başına qara bağladı.*

*İnsan kor bağırsaq qurbanı oldu...*
*Bir igid ürəyi kişnədi durdu*
*Üç körpə harayı hara çatacaq?!*
*Beş qardaş boynunu yetim tək burdu*
*Bir insan apardı bir kor bağırsaq.*
*Həkim! Axı, buna nə ad verək biz?*
*Nə olsun böyükdür əməlləriniz?!*
*Xərçəng sağaltmağı axtaranda da,*
*Bağırsaq kəsməklə verirsən bada..*

*Burda inanmadim qudrətinə mən,*
*Özün də özünə şübhə edirsən.*
*Yoxsa sən ürəyi köçürən günü,*
*Elə qızdırmadan öləcəyəm mən?!*

*Bir sözüm səhv olsa, bir misram sönük,*
*Ona düzəliş ver, qəzetlərdə yaz!*

*Özünsə səhvini aləmə car çək-*
*Belə etirafın təsiri olmaz*

*Sənin sənətinin varlığı budur-*
*Onun hər anında min diqqət yaşar.*
*Bir gündə yüz kərə ürək dəyiş sən,*
*Lakin unutma ki, hər saat, hər an*
*Böyrək –bağırsağı xəstə insan var....*

Ağstafa məzarlığında dəfn olundu. Hər dəfə İrəvan-Gəncə yolunu keçəndə, məzarlığa dönürəm. Qranit baş daşındakı portreti məni həmişə təbbəsümlə qarşılayır.

Gözlərimdən yaş axaraq onun məzarını isladır, o isə ... gülümsəyir, gülümsəyir ...

Və mənə elə gəlir ki, o, həqiqətən yazdığı kitablarda, qohum-qardaşının, dostlarının kövrək baxışlarında, su sonası kimi iki gözəl qızının varlığında yaşayır...





Arxivimdə Yusif Kəsəmənlinin daha bir məktubu qorunub saxlanılır. Bu erməni xəyanətinin qurbanı olmuş, filologiya elmləri namizədi İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin müəllimi, dilçi alim, yazıçı, "Dağlar qoynunda" və " Maral əfsanəsi" hekayələr kitabının müəllifi 35 yaşında aramızdan vaxtsız getmiş Mehdi Həsənovun vəfatı ilə bağlıdır. 1971-ci ildə kor bağırsağını kəsdirmək məqsədi ilə İrəvanda Respublika xəstəxanasına müraciət edən gənc alim cərrahiyyə əməliyyatından 4 gün sonra gözlərini qəflətən əbədi olaraq yumdu. Onun ölüm xəbəri bütün Ermənistan azərbaycanlılarını sarsıtdı. Qayğıkeş, həssas Yusif müəllimin məktubu məhz bu mövzuya həsr olunmuşdur. " Çox hörmətli Əli müəllim! Bu gün bir məclisdə (söhbət məclisi) oldum. Söz Mehdi Həsənovdan düşdü. Hətta bir nəfər cibində gəzdirdiyi şəkli də çıxardıb göstərdi. Doğrusu həddən artıq kədərləndim. Elə həmin kədərin təsiri ilə də ona bu şeiri həsr etdim. İndi həmin şeiri sizə deyim.

## Mehdi Həsənova itfah

Baxıram əksinə könlümdə qübar,
Yoxluğun hissi də necə dərindir.
Əgər cərgəmizdə olsaydın nə var,
Mən sənin haqqında nə yazım indi?

Yazımmı bir insan köçdü dünyadan?!
Yazımmı bir ata, bir ər gedibdir?!
Yazımmı bir cavan qartal qayadan,
Bir anlıq uçubdur,
Gələn, gedibdir?!

Bunları yazmağa daha nə hacət,
Sən yoxsan deməyə yox məndə taqət,
Bu el-obaya səndən əmanət,
Neçə yazılmamış əsər gedibdir.

Heç də sevinməsin qoy ölüm, qoy yaş,
Onlara çatmadı sənin varlığın,
Bu gün hamımıza bəllidir qardaş,
Sənin kişililiyin, üzü ağlılığın,

Yazımmı qapandı bir alim gözü?
Bir nasir qələmi, bir natiq sözü,
Yazımmı qəflətən Mehdinin üzü
Ürəkdən bixəbər, gülər gedibdir.





## Aspirantura illəri

Mehdi İpadromda kirədə qalırdı. Səhər saat 9 tamamda Axundov adına kitabxanaya gedər, axşam 8-9 aralarında evə dönərdi. Çörəyini yeyib, çayını içəndən sonra oturub səhərə qədər dissertasiya üzərində işləyərdi. Gecə durub yuxusu qaçsın deyə başını soyuq su altında yuyardı. Dedim:

– Mehdi sənə soyuq olar..

Dedi:

– Təqaüdüm kəsilməmiş mən müdafiə etməliyəm.

O, əziyyətlə oxudu. Zəhmətinin bəhrəsini isə görmədi.


МААРИФ НАЗИРЛИЙИ

ШӘҺАДӘТНАМӘ

№ 18

Мәктәб директору:

Дәрс һисса мудири:



*Mehdi və tələbə yoldaşları ilə (sağdan ikinci)*



*Mehdi inistitut illərində*



## Müdafiəsi

Müdafiəsi yüksək səviyyədə keçdi. Görkəmli alimimiz, elmi rəhbəri, Muxtar Hüseynzadə dedi:

– Mən bu üç ildə Mehdinin səsini bərkdən eşitmədim. Pıçhapıçla gəldi, o cür də sakit müdafiə etdi.

Müdafiədən sonra Mehdi ziyafət vermək üçün yer danışmışdı. Dedim:

– Ay Mehdi oranın qabları sadədir.

Yumorla cavab verdi:

– İçindəki yeməklər ləzzətli olsun qabı neyləyirsən?...

Dədə – baba yurdumuz olan İrəvan konyakı, böyüyüb boya-başa çatdığımız, ləpəsi evimizin divarına çırpılan Göyçə gölünün farel balığı və başqa qida məhsullarını gətirmişdilər. Ziyafət Cəlal Qasımovun və mənə bacı əvəzi olan Sənəmgildə oldu. Sənəmin bir ədəd Madonna boşqabı sındı. Mehdi çox təəssüf hissi keçirdi. Dedi işləyəndə Sənəmə gərək bir servis alım. Ömrü kimi sözü də yarımçıq qaldı.

## İşdən sonra...

Qardaşlarım Həsən, Hüseyn və Məhərrəm Ağstafada, Həbib, İsmayıl və Mehdi isə İrəvanda yaşayırdı. Hər gün işdən sonra İsmayıl və Mehdi Həbibgilə gəlirdilər. Həbib Mehdi tez gələndə İsmayılı, İsmayıl tez gələndə isə Mehdini soruşardı.Biri gec gələndə nigaran qalırdı.

– Hanı indi elə qardaş-bacı münasibəti? Çörəklərini yeyəndən sonra keçib iş otağında söhbət edərdilər.

Avqust ayı idi, qəbul imtahanları başlamışdı. Mehdi Həbibgilə çox qanı qara gəldi.

– Mehdi, nə olub ? – deyə soruşdum.

Dedi:- Ədəbiyyatın şifahi imtahanından bir qız kəsildi. Qız ağladı.

Dedi:- Atam yox idi, məni niyə kəsdin?

Mehdinin gözləri doldu.

Dedim:- Mehdi bu vəziyyətdə sən necə işləyərsən?

Dedi:- Rektorun yanına getdim ki, onu bərpa elətdirim, o da bərpa olmadı. Gələn il mən o qızı tapıb, instituta düzəldəcəm. Yazıq idi, atasız qızdır.

Mehdi gələn imtahanlara qalmadı. Özünün körpə iki qızı da atasız qaldı. Mən bu acı xatirələrimi olduğu kimi, bəzək-düzək vermədən qələmə aldım.



*Mehdi (sağdan birinci)*





*Mehdi İnstitut yoldaşları ilə birlikdə (oturan)*

*Bir qapı bağlı qaldı.*
*Ana fəryad edib, Mehdi deyib ağladı,*
*Bir gəlin başına qara bağladı.*

*Üç bacı ürəyi param-parça olub qan ağladı.*
*Beş qardaş arxasız, köməksiz qaldı.*
*İki körpə bala atasız qalıb, ağladı*

**Mehdinin qızları:**

Mehdinin qızları böyüdü. O, isə onların böyüməsini görmədi. Hər ikisi ali təhsillidir. Tərlan Mehdinin yolu ilə gedərək ədəbiyyatçıdır. İntizar isə rus dili müəllimәsidir. Tərlanın qızı, Fəridə Xarici dillər Universitetini bitirib. Babasının adını daşıyan balaca Mehdi isə bu il polis akademiyasına qəbul olundu. İntizarın oğlu Məmməd Rəhim Kanada Poronto Universitetinə yüksək balla qəbul olunaraq, bitirib. Qızı Əsmər isə Türkiyədə İstanbul Universitetini bitirib. Həyatda hamısına can sağlığı və müvəffəqiyyət arzulayıram.

**Mehdinin dostları:**

Onun dostları çox idi. Lakin ən yaxınları Hidayət Orucov , Əli Vəkil, Qəşəm Aslanov, Məqsud Cəlilov idi.






Mehdi rəhmətə gedəndən sonra bu kitab çap olundu. Qardaşım Həbib kitaba bu sözləri əlyazması ilə yazıb, mənə verdi.



Азәрбаjҹан поезијасында силинмәз из бурахмыш мәрһум шаир
ӘЛИ КӘРИМӘ итһаф едирәм.
Аjлар илә,
күнләр илә дүшүнүрәм,,,
вахтсыз гөбир көрәнләри...

Əməliyyata getməmişdən əvvəl çap maşının üzərində yarımçıq qalan şeiri.

*Aylar ilə, illər ilə düşünürəm*
*Vaxtsız qəbir görənləri*

Bilmədi ki, vaxtsız qəbir görəcək sözləri isə bacısı Səlvinindir. Mehdi Ağzıbirin dialetik ləhcəsi üzərində işləyirdi. O da yarımçıq qaldı, doktorluq dissertasiyası da. Mehdinin vəfatından əvvəl qardaşım İsmayıl minik avtomobili almışdı. O, İsmayılın uşaqlıq arzusu idi. Arzuları həyata keçəndə isə İsmayıl o maşını sürə bilmədi. Dedi:

– Mehdisiz mən o maşına heç vaxt minmərəm.

Maşın Ağstafada qardaşım Məhərrəmgilin məhləsində illərcə qaldı , çürüdü, atıldı. İsmayıl o maşına heç əlini də toxundurmadı. Mehdinin vəfatı qardaş-bacı, qohum-qonşu, dost-tanış və iki körpə bala üçün bir faciə idi. Ailəmizin xoşbəxtliyi, ağzımızın dadı-duzu Mehdi ilə getdi. Mehdinin vəfatından sonra mən bu 47 ildə bir dəfə də toylarda qol qaldırıb oynamamışam. Oğlumun, qızımın və nəvələrimin toyu olub. Soruşanda niyə oynamırsan, deyirəm mən qanadı qırılmış bir quşam .

Mehdi həmişə deyirdi:

– Səlvi , adam beşindən əskik olanda çalışıb onundan artıq olmalıdı. Ona görə də bütün əziyyətlərə qatlanıb bilik və bacarığını artırırdı.



## Mehdi və qızı Tərlan



Həmişə mənə öyüd-nəsihət verərdi. Onun ağzından çıxan hər bir kəlmə mənim üçün çox dəyərli idi. Bir gün alış-verişə çıxmışdıq. Mən artıq xərcə yol verdim.

Mehdi dedi:

– Səlvi beş manatın olanda onun iki manatını xərcləyib, üç manatını arxaya qoy. Bəlkə birinin ayranını vurub, tökdüm. Onun cəriməsini verib, canını qurtar.

Mehdinin vəfatından sonra gecə-gündüzüm yox idi. Mehdinin yoxluğu ilə barışa bilmirdim. Bir gecə yuxuda gördüm Mehdi gəlib, dedi:

– Səlvi, bir iş idi oldu.Özünü niyə öldürürsən, daha xeyri yoxdur.

Həyat yoldaşımın vəzifəsi ilə əlaqədar olaraq biz Zərdab rayonunda yaşayırdıq. Qonşumuzda həkim yaşayırdı. Gəlib mənə sakitləşdirici iynə vururdu ki, bir az yatım (ona yatmaq desək əgər). Ayılanda yenə fəryadım dünyanı götürürdü.



*Mehdi Inistitut illərində (oturanlardan ikinci)*

"Dan ulduzu" ansamblının bədii rəhbəri məhrum Gülarə xanım və yoldaşı rəhmətlik Adil ilə Zərdaba gəlib, 10 gün mənim yanımda qaldılar. O dar günümdə mənə dayaq olan o gözəl xanıma mən həmişə rəhmət oxuyuram. Yasin oxudanda onun da adını çəkdirirəm. Biz 1964-cü ildə Pereküşküldə hərbi hissədə yaşayırdıq. Leyli bibi, Gülarə xanım, Gülarənin bacısı qızı Arzu, bir də oğlu İlqar tez-tez bizə gələrdilər. Mehdi vəfat edəndə qardaş – bacım və mənim uşaqlarım hələ kiçik yaşlarında idilər. Mehdi haqqında onlarda xatirələr azdı. Buna baxmayaraq Mehdini gözəl əmi, gözəl ata və əvəzolunmaz dayı kimi xatırlayırlar.





*Mehdi və Əli vəkil*



*Mehdi Xam torpaqlarda tələbələrlə*



*Mehdi əmisi oğlu Budaqla*



*Zeynal , Mehdi, Sədrəddin, Sənəm, Səlvi*



Bizimlə bağlı xatirəsi olan insanlar dünyasını dəyişəndə mənə çox pis təsir edir. Deyirəm bir insan da bizimlə bağlı olan xatirəni özü ilə apardı. Ona görə bəzi xatirələrimi qələmə aldım. Məndən sonra bəzi xatirələrim ürəklərdə qalsın.

Mehdi orta məktəbdə oxuyanda kəndimiz Ağzıbirdə "Maral əfsanəsi" adlı şeir yazmışdı. O şeirin bir parçası mənim yadımda qalıb.

*Zalım ovçu sinə-sinə*
*Maralımı nişan aldı.*
*Maralımdan soruşmayın,*
*Ondan nə iz vardı?*
*Onun keçmiş oylağından qanlı bulaq yadigardı.*
*(Şeir üç bənd idi.*
*Lakin, yadımda qalan yalnız bu bənddir.)*

Elə bil Mehdi orda öz taleyini yazırdı. Qanına bulanmış maral bir cüt körpə balasına baxıb göz yaşı axıdırdı. Bunu görən ovçunun ürəyi partlayır. Bəs həkimin Şahinyan sənə bıçaq çəkərək iki körpə balanı gözüyaşlı qoyanda niyə ürəyi partlamadı?

Sonra hekayə kimi "Maral əfsanəsini" yazıb.

**Atam Rəhimin və anam Tərlanın ruhu qarşısında baş əyirəm.** Qaçqınlıqdan təzə qayıtmış, evləri ermənilər tərəfindən zəbt olunmuş, təzə ev tikib, yurd-yuva qurmaq o qədər də asan olmamışdır. Qaçqınlıqdan qayıdandan sonra böyük qardaşım Həbib 1922-ci il avqust ayının 5-də, sonra isə qardaş və bacılarım dünyaya gəlib. 9 uşaq böyüdüb boya-başa çatdırmaq, gözəl tərbiyə vermək hər kişinin işi deyildi. Bir-birimizə sayqı göstərməyi, hörmətlə yanaşmağı atam bizə aşılamışdı. Atam həddindən artıq ciddi bir insan idi. Biz 9 uşaq anamla, bir-birimizlə pıçhapıçla danışardıq. Bütün kənd əhalisi atama çox hörmət qoyardı. Qan davası düşsə də

atam gedən yerdə barışıq olardı. Kasıb bir ailə imkanlı qızına elçi gedəndə gəlib atamı aparardılar. Qız atası deyirdi:- Rəhim kirvə gələn yerdə biz nə karəyik qızımızı verməyək?. Atam təhsilimizə çox fikir verərdi. Hər axşam dərslərimizlə maraqlanardı.

Atamın qəbri qürbətdə, Ağzıbirdə qaldı. Mehdi və İsmayıl danışdılar ki, atamın qəbrini Ağstafaya gətirək. Amma gətirə bilmədilər. [illegible] xəstəxanada ağır vəziyyətdə qardaşım İsmayıla demişdi:

Mehdi – **“İsmayıl , bu torpaqda mənə xəyanət etdilər. Məni Azərbaycana apar , gücün çatmasa da Dilicandan Azərbaycan torpağına at”**.



*Atam Rəhim*



*Anam Tərlan*

***Anamın dedikləri:***

Ulu babamız Əmiraslan olub. Əmiraslanın oğlu Həsən dünyaya gəlib, Həsəndən Məhəmməd, Məhəmməddən isə atam Rəhim və əmim Çoban dünyaya göz açıblar. Atamgilin bir bacıları erməni-müsəlman davasında 1918-1920-ci illərdə 15 yaşında itkin düşüb. Gecə qaranlıqda qarın içində bütün kənd ayaqyalın qaçırmış. Ana-



mın, gündüz qız uşağı olub, gecə isə qaçhaqaç düşüb. Uşaq yolda borana düşüb. Anam deyirdi, uşaq yolda borana düşmüşdü. Tələsik qarı yarıb, uşağı qara basdırdım. Atamın dediklərinə görə Həsən baba iki qardaş olub. Biri Türkiyədə qalıb, Həsən baba isə Ağzıbirə gəlib. Kəndimizdəki çöllər və taxıl zəmiləri Həsən babanın olub. Daimi o yerlər Həsən kişinin adı ilə adlanırdı. Erməni-müsəlman davasında atamgil Tatlıya gəliblər. Anam deyirdi ki, hamı qarın yatalağına tutulmuşdu. Hamımızın saçı tökülürdü. Tatlı camaatı soruşurdu ki, sizdə adətdir ki, kişi kimi saçınız yoxdur?. Evlərə gedib bir ovuc arpa ununa işləyirdilər. Onu da gətirib çöldə ocaq qalayıb, hörrə bişirib içirdilər. (Hörrə – un və suyun qarşığından hazırlanmış isti xörəkdir).Anam dünyaya gələndə anası Gülsənəm doğuşda vəfat edib. Anamı ana nənəsi Gövhər arvad saxlayıb. Anam ailə quranda nənəsi ona çoxlu beşlik və onluq qızıl veribmiş. Onların hamısını Tatlıda bir ovuc arpa ununa dəyişdirib. Həmin vaxtda atam yataq xəstəsi olub, qarda ayaqları donubmuş, anam onu min bir əziyyətlə sağaldıb, sonra Tatlıdan Türkiyəyə gediblər. Bir türk paşası torpaq sahəsi verib. Ev tikib bir müddət orda qalıblar. Ara sakitləşən kimi, dədə-baba yurdu olan Ağzıbirə gəliblər. Ermənilər bütün evləri zəbt etmişdilər. Təzədən araba ilə daş daşıyıb, kəndin kənarında ev tikiblər.

Kəndimiz Ağzıbirdə çölə getmək üçün balaca bir cığır var idi. Həmin cığırda böyük qaya parçası var idi. Mehdi həmin qaya parçasının üzərinə adını yazmışdı. Mən onu görəndə çox pis oldum və dedim:

– Mehdi adını niyə ora yazmısan?

Mehdi mənə baxdı və dedi:

– Vaxt gələcək bu torpaqlara ermənilər sahib olacaq. Ona görə yazıram ki, min illər keçsə də, mənim adımla bilinəcək ki, bura azərbaycanlıların dədə-baba yurdudur. Qaya parçasını dəqiq nə ilə yazdığını bilmirəm. Amma çox dərin iz salmışdı.



*Mehdi (sağda) və əmim oğlu Şahverdi*






# Uşaqlıq xatirələrim...

***1948-1950-ci illərdə xalqımızın başına gələnlər***

Nor-Bayazet rayonunun Ağzıbir kəndində hər ailənin evinin qabağında bir hərbi yük maşını dayanmışdı. Əsgərlər tələsik ev əşyalarını həmin yük maşınlarına yükləyirdilər. Əli dubinkalı paqonlular maşının yanında var-gəl edirdilər. Yaxşı ki, üstü çadırlı maşın idi. Mən onda hələ məktəbə getmirdim. Bizim ailədə qardaşlarım Həsən, İsmayıl, bacım Zərnişan, Həsənin yoldaşı Mayaxanım köçüb getdilər. O vaxt Məhərrəm əsgər gedib, Həbib isə İrəvanda oxuyurdu. Evdə qalan isə Mehdi, mən və Həsənin azyaşlı oğlu Simnar idi. Mayaxanım o zaman ikinci uşağa hamilə olub, hamiləliyin son ayında idi. Özləri də, ev əşyaları ilə birlikdə yük maşınına mindilər. Mayaxanım yük maşınına çıxa bilmirdi. Ayağının altına stol qoyub onu birtəhər mindirdilər. Bunların hamısı mənim gözümün qarşısında oldu. Yük maşını ilə İrəvana gətirib, “tavarni” vaqonlara mindirib, Ağdaşın Aralbir kəndinə, digər qohumlar isə Xosrov və başqa kəndlərə yerləşdilər. Mayaxanımın doğuş sancıları tutub. Əmim arvadı Cahan xala “tavarnı” vaqonda uşağın doğulması üçün yardımçı olub. Deyirdi- Qatar getdiyi üçün kişilər vaqondan düşə bilmirdilər. Mələfəni kişilərin qabağına tutub, uşağı orada qəbul etdim. Qız uşağı dünyaya gəldi və adını Köçxanım qoydular. Ağır şəraitdə doğulan uşaq Ağdaşda vəfat etdi. Biz payızda köçməli idik. Atam bir neçə aydan sonra Aralbirə getdi.Çoban əmimin ailəsi də Aralbirdə yerləşmişdi. Dağ adamının aranda yaşamağı çox çətin idi. Atam gələndən sonra köçməkdən imtina etdi...

Köçgünlük zamanı İrəvanı tərk edən sonuncu şəxslərdən biri də qardaşım İsmayıl oldu. O, İrəvanın Kənd Təsərrüfatı Texnikumunda riyaziyyat müəllimi və həmən texnikumun qiyabi şöbəsinin direktoru vəzifəsində çalışırdı.Həbib hər zaman İsmayılın çox güclü riyaziyyatçı olduğunu vurğulayardı. Texnikum bağlandıqdan

sonra, İsmayıl tələbələrinin diplom ala bilmədiklərinə görə çox təəssüf hissi keçirirdi. Çox çalışdı ki, Azərbaycanda texnikomu bərpa edib, tələbələrini yeni açılan texnikumda bir araya gətirərək orada yerləşdirsin.Lakin buna müvəffəq olmadı.



*Mehdi (solda) Sədi və Müzəffər ilə*






Mehdinin vəfatından sonra kitab təzə çapdan çıxmışdı. Həbib öz əlyazması ilə kitabı yazıb, mənə verdi. (1971-ci il)

*Kiçik oğlu öldü, anası qaldı,*
*Oduna-közünə yananı qaldı.*
*Alim yazıçı əziz Mehdidən*
*Bu dünyada "maqnitafon səsi"*
*"Voqonotif cümlə ", "Maral əfsanəsi"*
*"Dağlar qoynunda" yadigarı qaldı.*
*Qardaşı: Həbib Həsənov*

Həbib mənim çəkdiyim acıları görüb, dedi:
– Səlvi, sağalmayan yara yoxdur...
Əziz qardaşım Həbib hardan biləydi ki, yaram qaysaqlasa da sağalmadı...

# HƏBİB HƏSƏNOV



*(1922-2004)*

Həbib Rəhim oğlu Həsənov 1922-ci il avqustun 5-də Qərbi Azərbaycanının (indiki Ermənistan) Nor-Bayazet qəzasının Ağzıbir kəndində anadan olmuşdur. 1938-ci ildə yeddiillik məktəbi bitirdikdən sonra, İrəvan Pedaqoji Məktəbinə daxil olmuşdur. 1940-1942-ci illərdə Nor-Bayazet rayonunun Ağqala kənd yeddiillik məktəbində müəllim, sonra isə məktəbin direktoru vəzifəsində çalışmışdır.

1943-1947-ci illərdə həmin rayonun Ağzıbir kəndində məktəb direktoru işləmişdir. 1947-1949-cu illərdə Ermənistan Respublikasının iki illik partiya məktəbində təhsil almışdır. 1949-1950-ci illərdə Ermənistan Respublikası Əzizbəyov Rayon Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri, 1950-1953-cü illərdə "Sovet Ermənistanı" qəzetinin partiya həyatı şöbəsinin müdiri, 1953-



1956-cı illərdə Üçmüədzin Rayon Partiya Komitəsinin ikinci katibi, 1956-1960-cı illərdə Amasya rayon Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmişdir. 1959-1960-cı illərdə Moskva Ali Partiya Məktəbinin müdavimi olmuşdur, 1960-1974-cü illərdə "Sovet Ermənistanı" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. Mətbuat sahəsində səmərəli fəaliyyətinə görə Əməkdar jurnalist adına layiq görülmüşdür.



1957-1975-ci illərdə davamlı olaraq Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur.

1974-cü ildən Azərbaycanın Tovuz Rayonu Partiya Komitəsinin birinci katibi, 1980-ci ildən Azərbaycan SSR Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədri, 1981-1989-cu illərdə Azərbaycan Respublikası Meşə təsərrüfatı naziri vəzifəsində çalışmışdır. 1976-cı ildən Azərbaycan KP MK-nın üzvü, Azərbaycan SSR Ali Sovetinin 9-cu və 10-cu çağırışlarının deputatı seçilmişdir.

İki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, digər orden və medallarla təltif edilmişdir.

1989-cu ildə "Ümumittifaq təqaüdçüsü" statusunda təqaüdə çıxmışdır.

1997-204-cü illərdə Azərbaycan mətbuatında Qərbi Azərbaycan, Qarabağ münaqişəsi və s. mövzularda məqalələrlə müntəzəm çıxış etmişdir.



*Qardaşım Həbib övladları (soldan) Bəxtiyar, Vidadi və Sara ilə*







*Həbib Həsənovun kitabının üz qabığı.*
*" Заповедники Азербайджана"*
*1987 -ci il*






*Səlvi böyük qardaşı Həbib ilə*

Böyük qardaşım, ata əvəzi olan Həbib haqqında yazmağa mənim gücüm çatmaz. Onun haqqında olan xatirələrimin bir qismini sizinlə bölüşürəm. Həbib ata-anaya, bacı-qardaşa və övladlarına çox bağlı bir insan idi. Atam sağ olsa da, biz həmişə Həbibi ata gözündə görərdik. Biz bacı-qardaşların arasında həmişə pərdə olub. Onun yanında bir qurtum su içməyə də utanardıq. Ailəmizdə Həbib ən çox mənə və Mehdiyə bağlı idi. Həbib İrəvanda bir gün qardaşım İsmayıla rast gəlir. İsmayıl da dostları ilə bir yerdə imiş. Əlində siqaret olub. İsmayıl tez siqareti qolunda gizlədib. Həbib deyib ki, İsmayıl qolun yandı. Mehdi kor bağırsaq əməliyyatında olanda Həbib xəstəxanaya gedib. Mehdi tez mələfəyə bükülüb, ayaq üstə durub.

Həbib deyib: -Ay Mehdi bura ki, xəstəxanadır.

Bizim ailədə bir-birimizə çox böyük hörmət var idi. Təzə il idi. Mən Həbibgilə getmişdim. Stolun üstündə naz-nemət dolu idi. Oğlu Vidadi bir parça mənim boşqabıma hinduşka əti qoydu. Utandığımdan bilmədim mən hinduşkanı yedim, yoxsa hinduşka məni. Axır vaxtlar tez-tez dərdləşərdik.

Bir dəfə dedi:

– Kitab yazıram, şəcərəni də ora əlavə edəcəm. Bütün qohum-əqraba uşaqları biz olmayanda bir-birini tanısınlar deyə.

Kitabını tamamlamağa az qalmışdı. Xəstə idi. Mən dedim ki, gəl bizə gedək. Dedi ki, 3 səhifəm qalıb, onu tamamlayıb gələcəm. Bir də təkid etdim. Dedi ki, axı sənə dedim 3 səhifəm qalıb, yazıb gələcəm.

Amma ölüm aman vermədi. O sözlər hələ də qulağımdan getmir. Kitabı da yarımçıq qaldı, həyat səhifəsi də.

Ata əvəzi olan əziz qardaşım Həbibə:

*Ürəyimin parası idin,*
*Həyatımın mənası idin,*



*Atasız balalarımın atası idin,*
*Nəvələrimin babası idin.*

*Ata payım idin,*
*Ana yadigarım,*
*Qəfil qonağım idin,*
*Şirin payım.*

*33 illik Mehdi bəlası,*
*Göynətdi, sızlatdı, Həbib yarası.*
*Mehdidə sönən ümid çırağım,*
*Həbibdə söndü həyatımın mənası.*

*Atasızlara ata oldun.*
*Atalılara dayaq oldun.*
*Qohum-əqrəbanı sayan oldun.*

***Səlvi Rəhimqızı, 2004***

## "SİLİNMƏZ ADLAR, SAĞALMAZ YARALAR"

*Azərbaycan Dövlət nəşriyyatı , Bakı -1997-ci il*



Üz qabığında müqəddəs Göyçə mahalının və Göyçə gölünün rəngli xatirəsi olan "Silinməz adlar, sağalmaz yaralar" adlı kitabı dönə-dönə vərəqləyirəm. Xəyal məni 40 il bundan əvvələ-gənclik illərimə aparır. O illərə ki, onda indi Ermənistan adlandırlan respublikanın Göyçə mahalı da, Vedibasarı da, Zəngibasarı da, Ağbabsı da, Qəmərlisi də, Qarakilsəsi də, Cəlaloğlusu da, Dərəçiçəyi də, Dilicanı da bizim idi. O yerlərdə soydaşlarımız yaşayıb, fəaliyyət göstərirdilər. Təəssüf ki, indi bunların hamısı bizim üçün xəyal, yuxu, əfsanə olub. O torpaqları tərk edib, Azərbaycana pənah gətirmişik.

Həbib müəllim bu maraqlı tədqiqat əsərini aramızdan vaxtsız getmiş qardaşı, dilçi alim Mehdi Həsənovun xatirəsinə həsr etmişdir. Filologiya elmlər namizədi Mehdi Həsənov İrəvan Dövlət Pedaqoji



İnstitutunun Azərbaycan şöbəsində dərs deyirdi. "Maral əfsanəsi" və "Dağlar qoynunda" adlı iki hekayələr kitabının müəllifi idi.

Həbib Rəhimoğlu qəzetdə işlədiyi vaxtlar və ondan sonra da respublikanın müxtəlif bölgələrində neçə-neçə istedadlı gənci İrəvana dəvət edərək redaksiyada işə götürüb, kollektivi cavanlaşdırırdı. O, bütün Zaqafqaziyada ən təcrübəli və uzun ömürlü qəzet naşiri idi. (on beş il "Sovet Ermənistanı" qəzetinin fasiləsiz redaktoru oldu).Eyni zamanda Ermənistan SSR Ali Soveti Rəyasət heyəti sədrinin müavini idi. Mərkəzi Komitənin üzvü idi. Respublikada böyük nüfuz sahibi, mənim də mənəvi arxam idi.

Həbib Həsənovun "Silinməz adlar, sağalmaz yaralar" kitabında məni riqqətə gətirən bir də o oldu ki, əsər məzarları qürbətdə qalan soydaşlarımızın, mənim əziz və istedadlı dostum, istedadlı dilçi alim, vaxtsız itirdiyimiz Mehdi Həsənovun xatirəsinə həsr olunub. Mehdi haqda "Burdan min atlı keçdi" də ayrıca yazı da var, ona həsr olunmuş şeir də. Amma ürəyim yenə doludur. Onu deyim ki, yaşasaydı Azərbaycanın ən böyük dilçi alimlərindən biri olardı.Yaşaya bilmədi.

"Otuz beş yaşında ikən mürəkkəb olmayan cərrahiyyə əməliyyatından (korbağırsağın kəsilməsindən) sonra müəmmalı şəkildə ayrıldı bizlərdən. Bu hadisə hamımızı sarsıtdı. Həbib Həsənov dözə bilmir və xəstəxanaya baş həkimin otağına gedir və tapşırır ki, həkimləri ora dəvət etsinlər.

Hamı yığışandan sonra onların cinayət əməllərini üzlərinə deyib, gözlərinin içinə tüpürür, baş sağlığına gələn MK-nin birinci katibi A.Koçinyana və büro üzvlərinə kəskin iradlarını bildirir, Mehdini gətirib müqəddəs Azərbaycan torpağına tapşırır.

Bu hadisə o vaxt İrəvanda bomba kimi partladı və Həbib Həsənov yüksək vəzifələri atıb Bakıya köçdü....

Həbib Rəhimoğlu və onun adı çəkilən qiymətli kitabı barədə deyilən bu misraların müəllifi əsərə ön söz yazmış, görkəmli şair və publisist Hidayət Orucovdur.

Azərbaycan xalqının tarixinin qaranlıq səhifələrinə işıq saçan bu dəyərli tədqiqat əsəri "Azərbaycanlılar keçmiş Ermənistan SSR ərazisində", "İndi Ermənistan adlanan ərazidə azərbaycanlılar yaşamış kəndlər", "Ermənistan SSR-də azərbaycanlılar yaşamış rayonlar" və "Ermənistan SSR ərazisində azərbaycanlılar yaşamış kəndlərin rayonlar üzrə təsnifi" bölmələrindən ibarətdir.

Müəllif yazır: "Azərbaycanlılar keçmiş Ermənistan SSR ərazisində dedikdə Azərbaycan xalqının qədimdən yaşadığı ərazi-doğma ata-baba yurdu – 1920-ci il noyabrın 29-dan bəri olan dövrdə Ermənistan SSR – Sovet Ermənistanı adlanan dövlətin ərazisi nəzərdə tutulur. Məqsədimiz Sovet Ermənistanı ərazisinin əsas hissəsini təşkil edən İrəvan xanlığı, sonra İrəvan quberniyası ərazisində, 1920-ci ildən sonra isə Ermənistan SSR ərazisində azərbaycanlıların ümumi miqdarı və azərbaycanlılar yaşamış kəndlər haqqında oxuculara yığcam məlumat vermək, tarixçilərimizi bu məsələlərlə dərindən məşğul olmağa sövq etməkdir. Bu məlumatlarla İrəvan quberniyasının tərkibinə daxil olan Naxçıvan və Sürməli qəzalarının əhalisi və kəndləri haqqında məlumatlar daxil edilmişdir. Çünki onlar Ermənistan SSR tərkibində olmamışdır. 1920-ci ildən sonra isə Ağbaba, Loru-Pəmbək bölgəsi, Qazaq qəzası, Zəngəzur qəzası əraziləri də Ermənistan SSR tərkibinə daxil edilmiş ərazilərdə yaşayan azərbaycanlıların miqdarı ümumi məlumatlara əlavə edilmişdir. Müəllifin kitabı olduqca maraqlı faktları oxuculara təqdim edir. Ermənilərin İran və Türkiyədən kütləvi surətdə köçürülmələri, azərbaycanlı torpaqlarında məskunlaşması barədə məlumatı verərək əsl həqiqəti ictimaiyyətə çatdırır. Türkmənçay müqaviləsi bağlanandan cəmi 16 gün sonra İrandan ermənilərin kütləvi surətdə köçürülməsinə başlanıldı. Bu işin təşkilində rus qoşunları ilə birlikdə İrana qarşı vuruşan erməni zabitləri xüsusi canfəşanlıq və fəallıq göstərmişlər. Köçürmənin təşkili polkovnik Yeğizar Lazaryana tapşırılmışdır. Polkovnik Movses Artunyan, Yerkatnabazuk , mayorlar



İvane Mexikjan, İsak Qazaryan, David və Aleksandr Qorqonyanlar onun köməkçiləri idi.







1928-1929-cu illər ərzində 8000 dən çox erməni ailəsi, təqribən 45.000 nəfər Atrapakandan köçürülüb İrəvan və Naxçıvan xanlıqlarında, habelə Qarabağda yerləşdirilmişdir. Ermənilərin İrandan köçürülüb İrəvan xanlığı ərazisində yerləşdirilməsinin əsas təşkilatçısı Rusiyanın İranadakı səfiri A. S. Qribyedov olmuşdur.O, Türkmənçay müqaviləsinin mətninin müəllifi A. S. Qribayedov idi. Xidmətlərinə görə də əhalisi 1918-cu ildən bütünlüklə azərbaycanlılardan ibarət olan Aralıq Kolanı (Eçmiadzin rayonu) kəndi Qriboyedov adlandırılmışdır. Daşnaq erməni tarixçiləri yalanlara, böhtanlara arxalanaraq Azərbaycan torpağını ermənilərin ata-baba yurdu kimi qələmə vermiş, özgə ərazilərin hesabına "Böyük Ermənistan" yaratmaq həvəsinə düşmüşlər. Ona görə də onlar Dağlıq Qarabağa ermənilərin köçüb gəlmdiklərini deyil, əslən oralı olduqlarını, min

illər boyu orada məskunlaşdıqlarını iddia edirlər. Həbib Rəhim oğlu öz əsərində bu yalanların əsassız olduğunu tutarlı faktlarla sübut edir. Erməni millətçiləri Qarabağın ermənilərə məxsus olduğu və bu bölgədə ermənilərin əsrlər boyu məskunlaşdığını iddia edib, öz təcavüzkarlıq siyasətlərinə bununla haqq qazandırmağa çalışırlar. Lakin, Həbib Həsənovun vurğuladığı tarixi faktlar bunun əksini təsdiqləyir. Həmin mənbələrdən birində 1926-1928-ci il Rusiya-İran müharibələrinin və ermənilərin Zaqafqaziyaya köçürülməsinin şahidi olan Serqey Qlinkon "Opisaniye pereseleniye armyan v Azerbaydjanskiye peredeli Rossii" kitabında yazır: "Bu vaxt Lazerev göstəriş aldı ki, Naxçıvan və İrəvan xanlıqlarına gedən köçkünlərin yolunu Qarabağ xanlığına yönəltməyə çalışsın.Çünki, orada deyilənə görə etibarlı ehtiyyatlar var".

09 mart 1828-ci ildə axırıncı rus qoşunları Təbrizi tərk etdi.Türkmənçaya yanaşı olan müxtəlif kəndlərin erməniləri Qarabağa tərəf hərəkət etdilər. 1928-ci il fevralın 26-da mən Siz əlahəzrətlərdən Azərbaycanda məskunlaşan erməni və digər xristianları İrəvan, Naxçıvan və Qarabağ vilayətlərinə köçürmək haqda göstəriş aldım. Çoxsaylı etibarlı mənbələrdən, məxəzlərdən məharətlə istifadə edən müəllif elə qiymətli faktlar üzə çıxarmışdır ki, erməni yalanlarını alt-üst edən bu tədqiqat əsəri üçün Həbib Rəhimoğluna tarix elmlər doktoru alimlik dərəcəsi verilsə belə azdır." Buradan da belə bir qənaətə gəlirik ki, kitabı yazmaq üçün Həbib müəllim nə qədər yuxusuz gecələr keçirib, sonsuz zəhmətə qatlaşıb. Belə tutarlı tədqiqatlar bu gün Azərbaycan tarixinə hava, su kimi gərəkdir.

Andronik hələ Naxçıvanda olarkən oranı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. Cəfəngiyyata bax. Türkiyə ərazisi zəbt olunub, çar Rusiyasına birləşdirilməsi uğrunda vuruşan Andronik indi də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın Sovet Rusiyasına birləşdirilməsi haqqında təklif irəli sürür. Andronik 1918-ci il iyul ayının 14-də Bakıya S. Şaumyana vurduğu teleqramda öz qoşun birləşmələrini Rusiyanın mərkəzi hökümətinin sərəncamına verdiyini və ona tabe olduğunu bildirirdi. S.Şaumyan isə Andronikin şəxsində "həqiqi xalq qəhrəmanını" təbrik edir. Andronik bu hərəkəti ilə belə bir həqiqəti başa düşdüyünü bildirdi ki, Çar Rusiyası ilə Sovet Rusiyasının Geopolitik siyasəti arasında heç bir fərq olmayacaq. "Böyük Ermənistan" xülyasının həyata keçirilməsində Sovet Rusiyasına da arxalana bilər. Belə də oldu. Zəngəzur və Göyçə mahalları, Qazax qəzasının Dilican dərəsi Azərbaycandan qoparıldı və Ermənistan adlı dövlət yaradıldı. Andronik çox yaxşı bilir və dərk edirdi ki, Bakı kommunarının başında S.Şaumyanın durması və komissarların əksəriyyətinin erməni, xristian olması gələcəkdə böyük Zaqafqaziyanı " Böyük Ermənistan" dövlətinə çevirmək üçün baza, imkan və şərait yaradacaqdır. Bakı kommunsı süqut etdi. Andronikin bu xülyası çin olmadı. Andronik öz qoşun hissələri ilə birlikdə Zəngəzuru tərk edib, Bazarçay-Dərəyəz yolu ilə gedərək 1919-cu ilin aprelində Eçmiadzinə çatdı. Burada o öz qoşun hissələrini buraxdı. Türk və azərbaycanlılardan talan etdiyi, yığdığı varidatı Katolikosa bağışlayıb, özü isə Avropaya, Amerikaya yollandı. Kitabda verilən maraqlı xəritələr, çoxsaylı cədvəllər ata-baba torpağımızın əlimizdən getməsi, erməni siyasətinin həyata keçirilməsi barədə oxuculara bir daha ətraflı məlumatlar verib, onları ayıq-sayıq olmağa çağırır. Həmin xəritələr və cədvəllərlə tanış olduqda o qənaətə gəlirsən ki, 1828-ci ildən başalayaraq daşnaqlar güclü, nüfuzlu havadarlarına arxalanaraq dənizdən dənizə "Böyük Ermənistan" yaratmaq xülyasını reallaşdırmağa çalışmışlar və bu yolda həqiqət donu geyindirdikləri, dünya ictimaiyyətinə təqdim etdikləri yalanlar təəsüf ki, qonşularımızın dadına çatmışdır. Yuxarıda qeyd etdiyimiz kimi kitabın ən maraqlı bölmələrindən biri indi "Ermənistan adlanan ərazidə Azərbaycanlılar yaşamış kəndlər" adlanır.

Müəllif yazır: Bu siyahıda 1929-cu il noyabrın 29-da Ermənistan SSR adlanan diyarın sərhədləri daxilində yerləşən və azərbaycanlıların yaşamış olduqları 650-dən çox kənd haqqında qısa

məlumatlar verilir. Kəndlər Ermənistanın inzibati ərazi bölgüsünə əsasən, rayonlar üzrə təsnifatlanmış və bu rayonların hansı qəzalara aid olduğu qeyd edilmişdir. Bu cür təsnifat azərbaycanlıların kompakt yaşadığı ərazi, bölgə haqqında tam təsəvvür yaradır. Qəzalar, rayonlar və kəndlər üzrə qeyd olunan rəqəmlər rəsmi dövlət sənədlərindən götürülmüşdür. Ona görə rəqəmlərin mötəbərliyi şübhə doğurmamalıdır.

Həbib Rəhimoğlu "Silinməz adlar, sağalmaz yaralar" kitabında çox dəyərli və heyrətamiz bir tədqiqat işi aparmış və demək olar ki, bu sahədə qarşısına qoyduğu məqsədinə nail olmuşdur. Bu işdə qocaman qələm sahibinə , xalqına, torpağına, Azərbaycana olan sonsuz məhəbbəti kömək etmiş, ilham vermişdir. Həbib müəllimin tam təfsilatını qələmə aldığı azərbaycanlılar yaşamış 665 kəndin nümunə üçün yalnız birinin və axırıncısının şərhini verməklə müəllifin nə qədər faydalı bir iş gördüyünə inam yaratmaq olar.

"Əbdürrəhman (Əbdürəhman)-İrəvan quberniyası Eçmiadzin qəzasında (Ermənistan SSR, Eçmiadzin) rayonundakı Dzaxqunk kəndi ilə birləşdirilib, azərbaycanlılar yaşamış kənddə 1831-ci ildə 30 nəfər azərbaycanlı əhalisi olub. Onlar qonşu Aylanlı kəndinə köçmüşlər. Kənddə kürdlər məskunlaşırdı." İndi də axırıncı, 665-ci Azərbaycan kəndi barədə Ertiş (Ertic) Ermənistan SSR Yeğeqnadzor rayonunda azərbaycanlılar yaşamış kənd əhalisi 1831-ci ildə 70, 1886 -ci ildə 234, 1905-ci ildə 298, 1914-cü ildə 258, 1931-ci ildə 53 nəfər azərbaycanlıdan ibarət olmuşdur .

1918-1920-ci il faciəsi. Ermənilər buraya gəlib və 1931-ci ildə 143 nəfər erməni əhalisi olmuşdur. Kənd 1930-cu ildən ləğv edilib. Bədnam ermənilər öz mənfur niyyətlərinə çatmaq yolunda ehtiyatlı olmuş, məqsədə doğru addım-addım irəliləmişlər. Beləliklə, Ermənistan SSR adlanan məkanda məxsus qədim oğuz torpağı olan kənd və rayonların adları bir qayda olaraq dəyişdirilmiş, necə deyərlər ermənləşdirilmişdir. Həbib müəllim kitabında Ermənistan



dövlətinin ərazisində mövcud olan 25 rayonun təsnifatını vermişdir. Bir daha həmin rayonları nəzərdən keçirək.

Abovyan, Artaşat, Ararat, Amasiya, Vardenis, Qyoqark, Gorus, Qafan, Yeqnadzor, Əştərək, Əzizbəyov, Eçmiadzin, İrevan, Kalino, Kamo, Krasnoselo, Masis, Meğri, Noyemberyan, Hokemberyan, Hrazdan, Sisyan, Spitak, Stepanavan və Tumanyan. Beləcə qədim oğuz yurduna məxsus yer adları Basarkeçər, Qəmərli, Dərəçiçək, Zəngibasar, Vedibasar, Qarakilsə, Cəlaloğlu, Gümrü, Zəngəzur və s. müqəddəs ərazi adları ustalıqla ləğv edilmiş, əvəzində qondarma erməni adları verilmişdir. Kitabın üz qabığında Göyçə gölünü və onu dövrəyə alan dağları təsvir edən rəngli xəritə də çox maraqlı və əhəmiyyətlidir. Ermənilərin hazırda Sevan adlandırdıqları Göyçə gölünü əhatə edən dağların adlarına nəzər salmaq bir sıra qaranlıq mətləblərin açılması deməkdir. Şahdağ, Gəncədağ, Pəmbəkdağ, Misxanadağ, Ağmanqandağ və Palantökəndağ. Əlavə izaha ehtiyac yoxdur...

Görkəmli partiya və dövlət xadimi, istedadlı jurnalist Həbib Rəhimoğlunun bu uğurlu qələm təcrübəsi tarixçilər üçün böyük əhəmiyyətə malikdir.

*Əli vəkil*

Qardaşım Həbibin yaratmaq arzusunda olub, vaxtsız vəfatı səbəbi ilə tamamlaya bilmədiyi şəcərəni sizlərə mən təqdim edirəm...






# SON SÖZ

Əziz oxucularım!

Sizi bədbin notlara kökləndiyimə görə hamınızdan çox-çox üzr istəyirəm.

Ön sözü də özüm yazdım, son sözü də. İstədim uşaqlığımızdakı kimi Mehdi ilə baş-başa qalım. Mən həmişə insanlara xoş əhval-ruhiyyə bəxş etməyə çalışmışam. Ürəyim qan ağlasa da, həmişə üzüm gülüb.

Mənim də həyatımda yarımçıq qalan arzular çox olub. Bir gün Mehdiyə dedim:

– Mehdi bir neçə il keçəndən sonra mənim yarımçıq qalan arzularımı qələmə al.

Amma təəssüflər olsun ki, mən onun yarımçıq qalan ömrünün acılı-şirinli xatirəsini qələmə alası oldum. Əziz gəlinlərimiz, sizin hamınıza **bütöv** ömür, xoş günlər arzulayıram. Daimi qardaş qayğısı, ər nəvazişi görəsiniz.

*Səlvi Rəhimqızı Miskərli (Həsənova)*

## MÜNDƏRİCAT


ÖN SÖZ ........ 3

Nəcib insan, unudulmaz yoldaş ........ 4

MEHDİ RƏHİM oğlu HƏSƏNOV ........ 7

"Maral əfsanəsi" ........ 8

Mehdi haqqında qısa xatirələrim ........ 13

Mehdi Həsənov – yaxın dostum ........ 17

Mehdi Həsənova itfah ........ 21

Aspirantura illəri ........ 23

Mehdi və qızı Tərlan ........ 31

Uşaqlıq xatirələrim ........ 39

HƏBİB HƏSƏNOV ........ 42

"SİLİNMƏZ ADLAR, SAĞALMAZ YARALAR" ........ 48

SON SÖZ ........ 57





*Korrektor: Nəcəf Şabanov*

*Dizayner: Piriyeva Fidan*

*Texniki redaktor*
Mətanət Qaraxanlı

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 15.11.2018.
Format: 60x84 1/16. Həcmi: 3,75 ş.ç.v. Tiraj: 100.
Sifariş № 299.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az



**Səlvi Rəhim qızı Həsənova** 1945-ci il Nor-Bayazet rayonunun Ağzıbir kəndində anadan olmuşdur. Orta məktəbi 1960-cı ildə Amasya rayonunda gümüş medalla bitirdikdən sonra, 1966-cı ildə Bakı şəhəri 1 saylı Tibb Məktəbinə daxil olub, 1969-cu ildə müvəffəqiyyətlə bitirmişdir. 1976-cı ildən əmək fəaliyyətinə başlayaraq, 95 saylı məktəbdə "tibb bacısı və ilk yardım" fənnindən şagirdlərə dərs deyib. Həmin illərdə 260 saylı məktəbin nəzdində Tədris İstehsalat Kombinatında (UPEKA) 9-10-cu siniflərdə qızlara dərs deyib. 1988-ci ildən Xətai rayonu 10 saylı Qadın Məsləhətxanasında çalışıb. Xətai rayon Səhiyyə İşçiləri Həmkərlar İttifaqı tərəfindən fəxri fərmanla təltif olunub. Hal-hazırda Müdafiə Nazirliyinin təqaüdçüsüdür.

